28 noyabr / 2020

Ədəbiyyat QƏZETİ



# Nisə BƏYİM

Amansız ölüm tanınmış şair Nisə Bəyimi aramızdan apardı.

Nisəbəyim İsmayıl qızı Rəhimova 6 mart 1955-ci ildə Sabirabad şəhərində anadan olmuş, burada M.Müşfiq adına orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Paqaqoji İnstitunun filologiya fakültəsində təhsil almışdır (1972-1976).

O, pedaqoji fəaliyyətə 1976-cı ildə doğma rayonunda vaxtilə təhsil aldığı məktəbdə başlamışdır.

Bədii yaradıcılığı tələbəlik illərilə bağlı olsa da, şeir, poema və hekayələri dövri mətbuatda ötən əsrin 80-ci illərindən dərc olunmağa başlayıb. İlk mətbu şeiri "Vətən mənəm" 1988-ci ildə "Azərbaycan müəllimi" qəzetində dərc edilmişdir. Sonrakı illərdə Nisə Bəyimin "Yerə, Göyə, Tanrıya", "İlahi vaxt", "Ulduz səsləri", "Ayla, Günlə bərabər", "Məndən dünyanı sorma", "Günəşdən yağan yağışlar", "Yeddinci kitab", "Ürək simfoniyası" və s. kitabları işıq üzü görmüşdür.

O, Azərbaycan Yazıçılar Birliyinin "İsa İsmayılzadə" (2000) və "Nigar Rəfibəyli" (2006) mükafatlarına layiq görülmüşdür.

Tanınmış şair, gözəl pedaqoq və səmimi insan olan Nisə Bəyimin xatirəsi onu tanıyanların qəlbində yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi,**

**AYB-nin Aran bölməsi**